**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

***Əlyazması hüququnda***

**AZADƏ MİRZƏ HÜSEYN qızı İMANOVA**

# İNFORMASİYA CƏMİYYƏTİ VƏ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASI: SOSİAL-FƏLSƏFİ TƏHLİL

**İxtisas: 7207.01 – Sosial fəlsəfə**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## AVTOREFERATI

**Bakı – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | fəlsəfə üzrə elmlər doktoru, professor<br>**Həmid Rza oğlu İmanov** |
| **Elmi rəyçi:** | fəlsəfə üzrə elmlər doktoru, professor<br>**Tahirə Bəkir qızı Allahyarova** |
| **Rəsmi opponentlər:** | fəlsəfə üzrə elmlər doktoru<br>**Füzuli Məhəmməd oğlu Qurbanov** |
| | fəlsəfə üzrə elmlər doktoru, professor<br>**Qızılgül Yasin qızı Abbasova** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Memarlıq və İnşaat Universiteti** |

Müdafiə “____”____________2018-ci il tarixində saat ____-da AMEA-nın Fəlsəfə İnstitutu nəzdindəki fəlsəfə üzrə elmlər doktoru və fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı ş., AZ-1143, H.Cavid prospekti 115, AMEA-nın Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” _________2018-ci ildə göndərilmişdir.

**Fəlsəfə İnstitutunun nəzdindəki**
**D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı HƏSƏNOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı**. İyirmi birinci əsrdə bəşər sivilizasiyası özünün inkişafının yeni informasiya epoxasına daxil olmuşdur. Ən yeni informasiya-kommunikasiya inqilabının genişlənməsi, informasiya texnologiyalarının sürətlə yayılması, ictimai proseslərin qloballaşması, beynəlxalq konvergensiya, infosferanın formalaşdırılması, həmçinin informasiya təhlükəsizliyinin təmin olunması zərurəti ilə infosfera adını almış yeni qlobal informasiya-kommunikasiya mühiti, ünsiyyəti və istehsal mühiti formalaşır. Telekommunikasiya inqilabı, elm, mədəniyyət, məişət, təhlükəsizlik də daxil olmaqla ictimai həyatın müxtəlif sahələrində şəbəkə strukturlarının formalaşması və inkişafı üçün olduqca əlverişli imkanlar yaradılır. Müasirlərimizin leksikonuna yeni “internet həyat üslubu” deyilən anlayış daxil olmuşdur.

Hazırda cəmiyyətin bütün strukturları informasiya ilə daha səmərəli işləmək istiqamətində köklənmişdir. Bu və ya digər insanın ictimai əhəmiyyəti, nüfuzu təkcə ənənəvi məhsullarla, istehsal şəraitinin, yaxud kapitalın, pulun olması ilə deyil, həmçinin, hər şeydən əvvəl, informasiya resurslarının, elmi biliklərin və informasiyanın sosial statusu ilə daha çox müəyyən edilir, “ictimai əhəmiyyət” anlayışı daha çox “informasiya əhəmiyyəti” ilə eyniləşdirilir. İctimai hakimiyyət və qüdrət pul sahiblərinin deyil, kapitaldan və var-dövlətdən rasional istifadə etməyi bacaran informasiyaya malik olanların əlində cəmləşir. İnformasiya cəmiyyətində yaradıcı insan həlledici faktor və cəmiyyətin informasiya resursu olmaqla çoxcəhətli şəxsiyyət kimi çıxış edir. Olduqca mürəkkəb struktur-funksional təşkilata malik yeni tipli müasir sosial-iqtisadi sistemdə insan müxtəlif funksiyaları, rəngarəng ictimai rolları yerinə yetirir. Bir sözlə, sivilizasiyanın müasir səviyyəsi fəlsəfi və ümumi-elmi kontekstdə insanşünaslıq problematikasını xüsusi əhəmiyyətli tədqiqat fenomeni kimi aktuallaşdırmış, insanın intellektual fəaliyyətini qlobal miqyaslı faktora çevirmişdir. Əslində gözlərimiz önündə sivilizasiya tarixində daha möhtəşəm qlobal informasiya inqilabı həyata keçirilir, bununla da sivilizasiyanın keyfiyyətcə yeni inkişaf səviyyəsinə – qlobal informasiya cəmiyyətinə keçidi baş verir.

Hadisələrin dinamik gedişi göstərir ki, sivilizasiyanın taleyinin sonrakı inkişafına daha güclü təsir göstərəcək radikal dəyişikliklər daha çox humanitar sahədə baş verəcəkdir. Çünki onun başlıca hərəkətverici qüvvəsi şəxsiyyətin özü, onun dünyagörüşü, dəyərlər sistemi, intellekti və savadı, cəmiyyətin qloballaşması şəraitində mühüm dərəcədə dəyişəcək əxlaqi yönümlənmələri və mənəviyyatıdır.

Məhz qlobal dəyişikliklər fonunda insanın sosiallaşması problemi



nəzəri-fəlsəfi önəmliyi ilə yanaşı təlim və tərbiyə sisteminin təkmilləşdirilməsində mühüm sosial mexanizm kimi aktual praktiki əhəmiyyət kəsb edir. Cəmiyyətin yeniləşməsi, bizcə, azadlıq faktoru sayəsində mümkün olduğundan sosiallaşma probleminin insanda şəxsiyyət başlanğıcının inkişafı məsələsi kimi tədqiqi həmçinin sosiumun azad fərdlər cəmiyyətinə keçidinin dərki üçün də vacibdir, ona görə ki, ictimai həyatda reqlamentasiya məsələsindən, iradəyə xarici təzyiqin necə rol oynamasından asılı olmayaraq, son nəticədə, ictimai proseslərin «iştirakçısı» şəxsiyyətdir, spontan hərəkət edən fərdi iradədir. Bu isə, ilk növbədə, insanlar arasında mövcud ictimai münasibətlərin analitik təhlilini nəzərdə tutur. Ona görə də, demək mümkündür ki, insanın sosiallaşması problemi həm də mövcud münasibətlərin necə insani olması barədə məsələdir, yəni insanların bütöv azad fərdlər kimi tələbatlarının ödənilməsi yolunda bacarıqlarının həyata keçirilməsi üçün hansı zəruri şəraitin yaradılması problemidir. Tədqiqat işini ümumi şəkildə aktuallaşdıran məhz yuxarıda göstərilən mühüm məqamlardır.

Lakin dissertasiya işini aktuallaşdıran bəzi xüsusi məqamları da göstərmək istərdik.

*Birincisi,* müasir Azərbaycan ictimai fikrində “informasiya cəmiyyəti-şəxsiyyət” problematikası sosial fəlsəfi kontekstdə çox az tədqiq edilmiş və onun sosial tərbiyə işində rolu dəyərincə araşdırılmamışdır.

*İkincisi,* informasiya cəmiyyəti yüksək informasiya və telekommunikasiya texnologiyaları və onlardan vətəndaşların, biznesin və dövlət hakimiyyəti orqanlarının intensiv istifadə olunması ilə xarakterizə olunur. Bu faktor informasiya cəmiyyətinin inkişaf strategiyasının və onun şəxsiyyətin sosiallaşmasına təsiri məsələsinin işlənib hazırlanmasını labüd edir.

*Üçüncüsü,* Azərbaycan sosial fəlsəfi fikrində «pablik rileyşnz» və «elektron hökuməti» problemlərinin şəxsiyyətin sosiallaşması kontekstində işlənməməsi dissertasiya mövzusunun aktuallığını artırır.

*Dördüncüsü,* qlobal informasiya cəmiyyətində müasir dövlətlər informasiya sayəsində öz sosial mövqelərini möhkəmlətməyə çalışırlar. Bu baxımdan Azərbaycanda informasiya cəmiyyəti quruculuğu perspektivlərinə diqqətin cəlb edilməsi dissertasiya işinə müəyyən aktuallıq gətirir.

**Problemin işlənmə dərəcəsi**. Qərb analitiklərinin tədqiqatlarında səslənən mühüm ideyalardan biri informasiyanın müasir cəmiyyətin fərqləndirici sosial əlaməti olması haqqında mülahizədir. Filosof F.Uebster[1] araşdırmalarında E.Masudanın, D.Bellin, M.Kastelsin, Q.Şillerin, Y.Habermasın, E.Qiddensin, J.Bodriyarın və Z.Baumanın nəzəriyyələrini təhlil edərək belə nəticəyə gəlir ki, dövrümüzün mühüm cəhəti informasiya

---

[1] Уэбстер Ф. Теории информационного общества. М.: Аспект-Пресс, 2004, 400 с.

sahəsində baş verən yeniliklərdir[1]. Müəllif cəmiyyətdə sosial, iqtisadi və siyasi ölçülərin texnoloji innovasiyalardan ayırmağı tənqid edir, bu fenomenin sosial sahə ilə üzvü əlaqəsini göstərir.

XX əsrin 70-ci illərində informasiya cəmiyyəti nəzəriyyəsi ilə post-industrializm konsepsiyasının qovuşması baş verir. Postindustrializm ideyası geniş kontekstdə D.Bellin araşdırmalarında verilir[2]. Onun fikrincə, postindustrializm cəmiyyətində nəzəri bilik, informasiya müstəsna rol oynayır[3]. «Başlıca rolu kobud əzələ qüvvəsi, enerji deyil, informasiya oynayır»[4].

Tanınmış ispan filosofu M.Kastels hesab edir ki, informasiya-texnologiya inqilabı özünün sosial mahiyyətinə görə, XVIII əsrin Sənaye inqilabı kimi böyük tarixi hadisədir[5]. O, informasionalizm anlayışının geniş şərhini verir və göstərir ki, informasionalizm biliyin biliyə məhsuldarlığın əsas mənbəyi kimi təsirini bildirən fenomendir[6].

Müasir qərb sosial-fəlsəfi fikrində informasiya cəmiyyəti anlayışını birmənalı şəkildə qəbul etməyən müəlliflər də mövcuddur. Məsələn, Herbert Şiller yeni informasiya cəmiyyətinin yaranması ideyasını qəbul etmir, çünki onun fikrincə, informasiya bütün tarixi dövrlərdə müəyyən səviyyədə olmuş, sosial inkişafa xidmət etmişdir. O, özünün «Şüuru manipulyasiya edənlər» əsərində informasiyadan şüurun manipulyasiya edilməsi ilə bağlı sosial mexanizmlərin mahiyyətini açır, informasiyadan mifoloji şüuru formalaşdırmaq vasitələrinə müəyyən yer ayırır[7].

Filosof P.Habermas özünün «açıq sfera» konsepsiyası çərçivəsində informasiya cəmiyyətinin və bu cəmiyyətdə baş verən sosiallaşma prosesinin xüsusiyyətlərini qeyd edir. Lakin o, informasiya cəmiyyəti və şəxsiyyətin sosiallaşması problemini daha geniş kontekstdə «Kommunikativ fəaliyyət nəzəriyyəsi» (1981) əsərində təhlil edir. Habermasa görə, sosial həyatın və sosial hərəkətin normaları «formal-praqmatik diskurs» nəticəsində müəyyənləşir, belə halda «qeyri-məcburi məcburiyyət» qalib gəlir. Onun yanaşmasında diskursun pozitiv rolu bundadır ki, o, birincisi, sosiallaşmanın, təhsilin və tərbiyənin vasitəsi kimi çıxış edir, ikincisi bu fenomen kommunikasiyanın forması kimi insanları ünsiyyətə

---

[1] Yenə orada, c. 7.
[2] Bell D. The Coming of Post-industries Society. AVenture in Social Forcasting N.V.Basic Books. 1973.
[3] Бах: file: // F: Особенности формирования информационного общества html.
[4] Даниэл Белл. Эюстярилян ясяри, с. 127.
[5] Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: Высшая школа экономики, 2000, с. 50.
[6] Кастельс М. Эюстярилян ясяри, с. 27.
[7] Шиллер Г. Манипуляторы сознанием. М., «Мысль» 1980, 328 с.



dəvət edir, onların bir-birlərini başa düşməyə kömək edir[1].

A.Masslou informasiya cəmiyyəti, şəxsiyyətin motivasiyası fəaliyyətində informasiyanın, informasiya texnologiyalarının rolu haqqında mühüm elmi-metodoloji fikirlər və yanaşmalar təqdim edir. Filosof M.Maklyenin media haqqında fikirləri dissertasiya işinin hazırlanması prosesində müəyyən örnək olmuşdur[2].

İnformasiya cəmiyyəti və şəxsiyyətin sosiallaşması problemi MDB məkanında işıq üzü görmüş əsərlərdə K.K.Kolin[3], Q.R.Qromov[4], E.L.Docenko[5], Q.Çayldz[6], E.A.Qromova[7], L.M.Zemlyanova[8], D.V.Olşanskiy[9], M.B.Kirillova[10], A.V.Şarikov[11], K.Zaznobina[12], V.N.Kostyuk[13] və b. əsərlərində müasir dövrdə kommunikasiya proseslərinin yeni keyfiyyətdə cərəyan etməsi, informasiya cəmiyyəti, plüralizm və sosiallaşma, ictimai rəyin formalaşması, onun sosiallaşdırıcı mexanizmləri, kommunikativistika və informasiya vasitələri, vizual kommunikasiya, real və virtual informasiya məkanları sosioiqtisadi proseslərdə infor-

---

[1] Василик М.А. Основные теории коммуникации. М., «Гардарики», 2006, с. 90-91.
[2] Макллюэн М. Понимание медия. М., 2003.
[3] Колин К.К. Социальная информатика – научная база постиндустриального общества // Социальная информатика. М.: Институт молодежи, 1994, с. 4-23.
[4] Громова Е.А. Плюрализм и порядок в современном обществе // Материалы научной сессии. г. Волгоград. 17-23 апреля, 2006, Вол ГУ. Вып. 5. 2006. с.50-52. www.Volsu.ru/ Volsu/news/diser/avto/
[5] Доценко Е.Л. Манипуляция: признаки, предпосылки и причины. М.: Аспект-Пресс, 1997, 256 с.
[6] Чайлдс Г. Общественное мнение: природа, формирование, роль. Дисс. канд. работы. М., 2004, 195 с.
[7] Громов Г.Р. Очерки информационной технологии. М.: ИнфоАрт, 1993, 331 с.
[8] Землянова Л.М. Коммуникативистика и средства информации. М.: МГУ, 2004, 416 с.
[9] Ольшанский Д.В. Взросление «Я». М.: Мысль, 1988, 348 с. Yenə onun. Политическая психология. СПб.: Питер, 2002, 576 с.
[10] Кириллова М.В. Медиаобразование в эпоху социальной модернизации // «Педагогика», 2005, №5, с. 13-21; Кириллова М.В. Медиакультура: от модерна к постмодернизму. М.: Академический проект, 2005, 448 с.
[11] Шариков А.В. Медиаобразование: мировой и отечественный опыт. М.: Академия педагогических наук СССР, 1990, 66 с.
[12] Зазнобина Л.С. Проект стандарта медиаобразования, интегрированного в гуманитарные и естественно-научные дисциплины начального общего и среднего общего образования. М.: Педагогика, 1999, 40 с.
[13] Костюк В.Н. Теория эволюции и социо-экономические процессы. М.: Эдиториал-УРСС, 2004, 176 с.

masiyanın yeri, mediatəhsil, informasiya sistemlərində biliklərin funksiyası və s. problemlərini araşdırırlar.

Filosoflar F.Cefkins, D.Yadin[1], Q.Poçepsov[2], K.B.Antipov, Y.K.Bajetov[3], M.U.Timofeyev[4], N.B.Abelmas[5], V.Q.Korolko [6] və b. tədqiqatlarında Pablik rileyşnz anlayışının mahiyyəti və funksiyaları, bu fenomenin informasiya cəmiyyətində rolu və sosiallaşma prosesinə təsiri dövlət idarəetmə sistemində tutduğu yer araşdırılır. Belə bir ümumi ideya əsaslandırılır ki, pablik rileyşnzin – ictimaiyyətlə əlaqələrin – təhlili və işlənməsi müasir elmin ən mühüm nailiyyətidir.

Tədqiqatçıların bir qismi virtual reallığın fəlsəfi problemlərinə[7], virtuallığın dünyagörüşü tipi kimi yeri[8], informasiya cəmiyyətində virtual kommunikasiyanın mədəniyyətin transformasiyasında faktor olması problemlərinə toxunmuşlar[9]. Dövlət hakimiyyəti orqanlarında ictimai əlaqələrin meydana gəlməsi və təkamülü, ictimaiyyətlə əlaqələrin məqsədləri və funksiyaları, dövlət xidmətlərinin ictimaiyyətlə əlaqələrinin fəaliyyətinin təşkilatı əsasları, informasiya kanalları ilə ictimaiyyətlə əlaqənin təşkilinin xüsusiyyətləri[10], Krivonosov A.D., Filatova O.Q., Şişkina M.A. isə PR-in fəaliyyətinin informasiya əsasları, PR-in fəaliyyətinin praktiki nəticələri və s. kimi aktuallıq kəsb edən problemlərə toxunurlar.[11]

«İnformasiya cəmiyyəti və sosiallaşma» problematikasının işlənməsində Azərbaycan tədqiqatçılarının da müəyyən payı vardır.

[1] Джефкинс Ф., Ядин Д. Паблик рилейшнз. Пер. с анг. под ред. Б.Л.Еремина. М.: ЮНИТИ-ДАНА, 2003, 416 с.
[2] Почепцов Г.Г. Паблик рилейшнз для професионалов. М.: Рефл-бук, 2005, 640 с.
[3] Антипов К.В., Бажетов Ю.К. Паблик рилейшнз. Учебное пособие. М.: Дашков и К°, 2001, 148 с.
[4] Тимофеев М.И. Связи с общественностью (паблик рилейшнз) М.: РИОР, 2005, 158 с
[5] Абельмас Н.В. Универсальный справочник по Паблик Рилейшнз. Ростов на Дону: Феникс, 2008, 95 с.
[6] Королько В.Г. Основы паблик рилейшнз. Киев: Ваклер, 2001, 528 с.
[7] Таратута Е.Е. Философия виртуальной реальности. СПб.: СПУ, 2007, 147 с.
[8] Носов Н.А. Манифест виртуалистики. М.: Путь, 2001, 171 с.
[9] Кучмуруков В.В. Виртуальные коммуникации как фактор трансформации культуры информационного общества. Канд.…. дисс. культурологии. Улан-Уде, 2006, 177 с.
[10] Русаков А.Ю. Связи с общественностью в органах государственных властей. Учебное пособие. СПб.: Изд-во Михайловского В.А. 2006, 224 с.
[11] Кривоносов А.Д., Филактова О.Г., Шишкина М.А. Основы теории связей с общественностью. СПб.: Питер, 2010, 384 с.



Doğrudur, bu problematika milli tədqiqatçılarda kifayət qədər işlənməmişdir, lakin mövcud nəşrlər deməyə əsas verir ki, ölkə filosofları tədqiqatlarında düzgün elmi metodologiyanı rəhbər tutmuşlar. İlk mühüm əsər kimi Q.Xəlilovanın «Gənclərin sosiallaşmasında teleinformasiyanın rolu» namizədlik dissertasiyasını qeyd etmək olar. O, politoloji aspektdə teleinformasiyanın təbiəti və funksiyaları, Azərbaycan cəmiyyətində televiziya demokratik institut, siyasət informasiya prosesi kimi, gənclərin sosiallaşması prosesində teleinformasiyanın imkanları və digər problemlər elmi-metodoloji həllini tapmışdır[1].

Qarayev Ə.M. və İsmayılov V.İ «Gənclərin kommunikativ məkanda sosiallaşması» əsəri araşdırdığımız problem baxımından müəyyən maraq doğurur. Müəlliflər «kommunikativ məkan» anlayışının sosial fəlsəfi təhlilini verir, informasiya cəmiyyətində gənclərin bir sosioloji kateqoriya kimi inkişafının xarakterik cəhətlərini açıb göstərirlər[2]. Azərbaycan fəlsəfi fikrinin inkişafında mühüm rol oynamış M.Əkbərovun[3], professor H.İmanovun[4] əsərlərində müasir cəmiyyət haqqında irəli sürülən mülahizələr tədqiqatımıza örnək olmuşdur.

Tədqiqatçı Quliyev R.B. məlumat-informasiya təminatı, informasiya istehlakçısının informasiya tələbatının təmin edilməsi, rəhbər işçiləri informasiya ilə təmin edilməsinin praktiki əhəmiyyəti, alimlərin və mütəxəssislərin fərdi informasiyaya olan ehtiyaclarının ödənilməsi, informasiya təminatının kütləvi formaları, informasiya materiallarının analitik-sintetik işlənməsi, xarici ölkələrdə elmi-texniki informasiya və bununla bağlı digər problemlərin araşdırılmasına xüsusi diqqət yetirir.[5]

Tədqiqatçı R.Abdullayeva informasiya cəmiyyətinin mühüm problemləri içərisində informasiya mədəniyyəti probleminə xüsusi diqqət yetirir. O, belə bir mövqedədir ki, informasiya cəmiyyəti və informasiya mədəniyyəti dialektik vəhdətdə inkişaf edən problemlərdir.[6] Tədqiqatçılarımızın bir qismi mətbuat səhifələrində Azərbaycanda

[1] Xəlilova Q.Ə. Gənclərin siyasi fəallığının artmasında teleinformasiyanın rolu. Siyasi elm. nam. ... dissertasiyası. B., 2005, 163 s.
[2] Караев А.М., Исмаилов В.И. Социализация молодежи в коммуникативном пространстве. Б.: Элм, 2005, 59 с.
[3] Əkbərov M.S. Kibernetika və incəsənət. B., Gənclik, 1968, 71 s.
[4] Иманов Г.Р. Социально-классовая структура развитого социализма. Баку: Азернешр, 1985, 160 с.
[5] Гулиев Р.Б. Информационная деятельность в новых условиях хозяйствования. Реферат. Б., АзНИИНТИ, 1990, 25 с.
[6] Абдуллаева Р.Г. Информационное общество и информационная культура: проблемы и перспективы // Материалы международной конференции «Проблемы информационной культуры». Б., 6-7 октября 2004, с. 162.

informasiya cəmiyyəti[1], vətəndaş cəmiyyətinin formalaşmasında İTK-nın rolu[2], İKT sektorunun cəmiyyətin modernləşdirilməsində yeri və funksiyaları və s. mövzuda çıxış etmişlər.[3]

**Tədqiqatin obyekti və predmeti.** Tədqiqatın obyekti informasiya cəmiyyətinin formalaşması prosesində cəmiyyətə məxsus ümumi məsələlərdir. Bu müasir cəmiyyətlər üçün çox geniş əhatəyə malikdir; söhbət informasiyanın bütünlüklə cəmiyyətin sosial varlığına, onun strukuruna təsirindən və onun nəticələrindən gedir. Lakin tədqiqatın predmeti daha konkret sferanın – informasiyanın bilavasitə təsiri nəticəsində şəxsiyyətin sosiallaşmasının sosial-fəlsəfi aspektləri təşkil edir ki, buraya ilk növbədə onun şüuru, hərəkət-rəftar modeli, həyat və düşüncə tərzinin ən ümumi məsələləri daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzunun tədqiq olunmasından məqsəd «informasiya cəmiyyəti» kateqoriyasının müasir anlamını aşkarlamaq, qloballaşma şəraitində onun xüsusiyyətlərini təhlil etmək, həmçinin informasiya texnologiyalarının inkişafı və yayılmasının şəxsiyyətin, dövlətin və cəmiyyətin sosiallaşmasına təsiri mexanizmlərinin göstərməkdir. Bu məqsədə nail olmaq üçün dissertant qarşısına aşağıdakı vəzifələri qoymuşdur:

– «İnformasiya resursları» anlayışını və onun şəxsiyyətin intellektual potensialının artırılmasında rolunu tədqiq etməklə informasiya cəmiyyətinin xüsusiyyətlərini aşkarlamaq, müasir informasiya texnologiyalarının, kommunikasiya vasitələrinin sosiallaşdırıcı rolunu araşdırmaq;

– Pablik rileyşinzin şəxsiyyətin sosiallaşmasında yeni faktor olması, real və virtual informasiya məkanlarının sosiallaşdırma potensialı məsələlərini nəzərdən keçirmək;

– İnformasiya məkanının təkmilləşdirilməsi, dövlətin sosiallaşması və şəxsiyyətin sosiallaşmasının yeni imkanlarının aşkar edilməsi problemlərini təhlil etmək;

– Azərbaycanda informasiya cəmiyyəti quruculuğunun perspektivlərini təhlil etmək, bu prosesin – informasiya mədəniyyətinin formalaşmasının ölkəmizdə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda funksional rolunu və bu prosesləri dialektik vəhdətdə nəzərdən keçirmək.

[1] Информационное общество в Азербайджане // «Бакинский рабочий», 2007, 7 ноября, №167, с. 3

[2] Велизаде Э.Т. ИКТ – это широкие возможности для сотрудничества и развития: «Азербайджанские известия», 3 октября, 2006, №183, с. 1; Джеваншир Л. ИТК Азербайджана: итоги, мнения, перспективы / «Бакинский рабочий», газ., 30 ноября, 2007, №225, с. 3.

[3] Babayev Ə.P. Modernləşmə estafeti neftdən İKT sektoruna keçir. // "Azərbaycan", qəz., 12 oktyabr, 2012, №229, s. 5.



**Dissertasiya işinin metodoloji əsasını** sistemli yanaşma, qərb sosial-fəlsəfi fikrində aktuallığını itirməyən analitik-metodoloji prinsiplər, konkret-tarixilik metodu təşkil edir. Dissertant son illərin nəzəri-praktiki araşdırmalarına söykənərək müqayisəli təhlildən, tarixi və məntiqi prinsiplərin əlaqələndirilməsi prinsiplərindən mövzunun xarakterinə uyğun istifadə etmişdir. Adı çəkilən metod və prinsiplər Azərbaycan gerçəkliyində informasiya cəmiyyətinin qurulması və şəxsiyyət üçün yeni sosiallaşma mühitinin yaradılması probleminin həllinə kömək etmişdir.

**Dissertasiyanın elmi yeniliyi**. Ən ümumi şəkildə götürülsə, tədqiqatın yeniliyi bundadır: milli sosial-fəlsəfi fikirdə «informasiya cəmiyyəti və şəxsiyyətin sosiallaşması» problemi araşdırılır. Bununla yanaşı tədqiqatımızda aşağıdakı yenilikləri göstərmək mümkündür:

–müasir Azərbaycan fəlsəfi fikrində «informasiya resursları» və «Pablik rileyşnz» kateqoriyalarının sosial-fəlsəfi təhlili verilir, bu fenomenlərin, eləcə də real və virtual informasiyanın sosiallaşdırıcı potensialı öyrənilir;

–«dövlət və sosiallaşma» məsələsinə toxunulur, problemin həllinin Azərbaycan gerçəkliyi üçün elmi-praktik əhəmiyyəti göstərilir;

–Azərbaycanda elektron hökumətinin yaradılması fenomeni sosial-fəlsəfi təhlilə cəlb olunması ilə ölkəmizdə informasiya cəmiyyəti quruculuğu prosesinin ayrılmaz hissəsi kimi araşdırılmasına cəhd edilir;

– Azərbaycanda informasiya cəmiyyəti quruculuğunun aktuallığı qeyd edilməklə yanaşı, bu işdə bir sıra tövsiyələr irəli sürülür.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti**. Fikrimizcə, dissertasiyada təqdim edilən müddəa və təkliflər araşdırılan problemin daha dərindən öyrənilməsində istifadə oluna bilər. Tədqiqatda Azərbaycan gerçəkliyində informasiya cəmiyyətinin qurulması perspektivləri və yeni sosiallaşma mühitinin formalaşması problemlərinin araşdırılması metodologiyasından faydalanmağa stimul ola bilər. «Azərbaycanda informasiya cəmiyyətinin formalaşması və elektron hökumətinin qurulması» mövzusunda mühazirə və seminarlarda dissertasiyanın bəzi müddəaları müəyyən əhəmiyyət kəsb edə bilər. Bizcə, «Dövlət və yeni sosiallaşma mühitinin formalaşması» mövzusu xüsusi kurs kimi öyrənilməlidir.

**İşin aprobasiyası**. Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür. Tədqiqatın materialları dissertantın müxtəlif vaxtlarda elmi toplumlarda dərc olunmuş məqalələrində əksini tapmışdır. İşin bəzi tezisləri respublikada keçirilən bir sıra elmi konfrans və seminarlarda

səslənmişdir. Bundan əlavə, dissertasiyanın mövzusu ilə bağlı bir sıra məqalələr xarici mətbuatda dərc edilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi girişdən, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənməsi dərəcəsi göstərilir, əsas məqsədi vəzifələri və nəzəri-metodoloji əsasları müəyyənləşdirilir.

**I fəsil "Cəmiyyətin informasiya resursları və şəxsiyyətin sosiallaşma imkanları"**, onun yarımfəsilləri isə **"Cəmiyyətin informasiya resursları və şəxsiyyətin intellektual potensialı", "Virtual reallıqlar və sosiallaşma: metodoloji təhlil"** adlanır. Bu fəsildə informasiya resursları anlayışı, onların saxlanması və effektiv idarə olunması, virtual və informasiya reallıqları və sosiallaşma, şəxsiyyətin intellektual potensialı kimi problemlər araşdırılır, göstərilir ki, bu anlayışın mahiyyətinin açılmasında keçən əsrin 70-ci illərinin əvvəlində planet səviyyəsində baş vermiş informasiya böhranı fonunda açılması mühüm metodoloji əhəmiyyət kəsb edir. Belə bir nəticəyə gəlinir ki, sosial tərəqqinin ən mühüm resurslarından biri cəmiyyətin informasiya sektorunun inkişafıdır. Belə cəmiyyətdə informasiya məhsuldarlığın artmasının, insan inkişafının əsas resurslarındandır. İşdə sosial-iqtisadi informasiyanın geniş yayılmasının əhəmiyyətindən bəhs edilir, informasiya ilə sosial informasiya anlayışlarının fərqi göstərilir. İnformasiya cəmiyyətində informasiya resursları sosial istifadə üçün bilik müxtəlif daşıyıcılarda, sənədlərdə, o cümlədən elektron sənədlərində, sənət əsərlərində və s. maddiləşir. Avtomatlaşdırılmış informasiya resurslarının intellektual əhəmiyyətindən bəhs edilir və göstərilir ki, informasiya resurslarının ümumi həcmində ən böyük hissəni elmi-texniki informasiya tutur, bazar iqtisadiyyatı inkişaf etdikcə kommersiya, işgüzar, hüquq, informasiya bazaları yaradılır. Bununla paralel olaraq informasiya kapitalın formalarından birinə çevrilir, dövlətlər üçün varlanmağın ən böyük potensial mənbəyi olur. İşdə informasiya cəmiyyətinin xarakterik xüsusiyyətləri açılarkən tanınmış filosof M.Kastelsə görə, "informasional kapitalizm" terminindən istifadə edən informasiya cəmiyyəti informasiya kommunikasiya texnologiyalarını təmin edən şəbəkələrin yayıldığı və informasiya axınının prioritet əhəmiyyət kəsb etdiyi yeni cəmiyyətin



yaranması deməkdir.[1] Alman filosofu V.Habermas informasiyaya əmtəə kimi yanaşanları ciddi tənqid edir. O hesab edir ki, informasiyadan hansısa gəlirin əldə edilməsi xatirinə istifadə olunursa, siyasi diskursun keyfiyyəti və siyasi həyatda iştirakının səviyyəsi aşağı düşür.[2] Dissertasiyada belə bir mühüm fikir qeyd edilir: informasiya sahəsindəki yeniliklər informasiyanın manipulyasiya edilməsinə geniş meydan açır, nəticədə açıq sfera üçün potensial təhlükə yaranır. Buraya biliyin əmtəəyə çevrilməsinə, ictimai institutlara hücuma, müzakirəyə deyil, inandırmağa üstünlük verilməsi, reklama yönəlmiş kütləvi informasiya vasitələrinin "ixrac" edilməsi və s. daxildir. Siyasətçilər həmişə ilk planda özlərinin nəzər nöqtəsinə uyğun arqumentləri görmək istəyirlər, bu da o deməkdir ki, kütləvi informasiya vasitələrində siyasi həyatın dəqiq işıqlandırılmasına mane olan hallar da mümkündür. Dissertasiyada qeyd olunur ki, cəmiyyətin informasiya resursları sahəsində aşağıdakı problemlərin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Birincisi, informasiya resursunun biliyin təqdim edilməsi forması kimi mahiyyətinin açılması, cəmiyyətdə müxtəlif informasiya resurslarının formalaşması, dəyişməsi və yayılması qanunauyğunluqlarının tədqiqi; ikincisi, informasiya resurslarının formalaşması haqqında biliklərin məcmusu olan "informasiya" və informasiya resurslarının bir formadan digərinə keçməsinin qanunauyğunluqları və onların cəmiyyətdə yayılması haqqında "informatika" kimi elmi fənlərin yaradılması zərurətinin meydana gəlməsi ehtimalı; üçüncüsü, cəmiyyətdə mövcud olan tələbatı proqnozlaşdırmaq; dördüncüsü, müxtəlif növ informasiya resurslarının regionlar üzrə bölüşdürülməsinin strukturları və topologiyasının tədqiqi metodlarını işləyib hazırlamaq. Göstərilir ki, perspektivdə bütün informasiya resursları ictimailəşəcəkdir, ona görə də ölkənin informasiya potensialının artırılması cəmiyyətin informasiya mühitinin inkişafı üçün müstəsna əhəmiyyət kəsb edir.

Virtual və informasiya reallıqları, bu fenomenlərlə bağlı sosiallaşma məsələsi bir metodoloji problem kimi mühüm əhəmiyyət kəsb edir. Göstərilir ki, insanların bütün koqnitiv reprezentasiyaları (bilavasitə təhlil obyektləri və modelləri virtual reallıqdır, yaxud virtual aləmlərdir), başqa sözlə, nə təbiət aləmi, nə də predmet aləmi deyillər. Həyatda, dünyada görünən, duyulan hər şey virtual reallıqdır, çünki bilik sayəsində

[1] Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: Высшая школа экономики, 2000, с. 21.

[2] Уэбстер Ф. Теории информационного общества. М.: Аспект-Пресс, 2004, 400 с.

reallıq əlamətləri qazanılır, lakin gerçəklikdə maddi obyekt şəklində bilik mövcud deyildir, yəni idrak prosesi reallığın virtuallaşmasından başqa bir şey deyildir. Virtual reallığın fəlsəfi təhlili göstərir ki, sosial əmələgəlmələrin köhnə və yeni tiplərini "real-virtual" dixotomiyasının köməyi ilə fərqləndirmək virtuallaşma anlayışını institutsional praktikaların stimulyasiyalarla əvəzlənməsi prosesi kimi daxil etməyə imkan verir. Sosial-fəlsəfi ədəbiyyatdan aydın olur ki, müasir virtuallaşma prosesinin tədqiqi yenicə təşəkkül tapmağa başlamışdır. Ona görə də virtual reallığın sosial-fəlsəfi, sosial-psixoloji, sosioloji aspektlərinin metodologiyasının işlənilməsi, eləcə də virtual reallığın sosial-fəlsəfi hadisə kimi, "informasiya reallığı" probleminin konseptual əsaslandırılması olduqca zəruri xarakter daşıyır. Bu dissertasiyada informasiya, informasiya reallığı insan fəaliyyəti obyektləridir və buna görə də bu kateqoriyaların dəqiqliyi reallığın informasiya baxımından dərkində mühüm əhəmiyyət kəsb edir. Ona görə də informasiya dünyagörüşünün və dünya anlamının müasir inkişaf mərhələsində informasiya reallığının daha geniş sahələrini əks etdirən dəqiq terminoloji sistemin müəyyənləşdirilməsinə zərurət yaranmışdır. Bu baxımdan ontoinformasiya strukturu problemi aktuallıq kəsb edir. Ontoinformasiya strukturu onun özünü yaradan qarşılıqlı informasiya əlaqələrinin quruluşudur. Bu gün yeni tipli qnoseologiyanın yaradılması və təşəkkülü prosesi informasiya reallığının daha dərindən öyrənilməsi onun qnoseoloji modelinin qurulmasını şərtləndirən amillərdən biridir. Bu kontekstdə kosmoloji dünyagörüşünü münasibətlər sisteminin kosmokibernetik nizamlanmış əlaqəsi kimi şərh etmək mümkündür. Sosiallaşmanın mühüm nəticəsi olan personallaşma prosesi desosiallaşma və resosiallaşma mühüm sosiallaşma potensialı olan personallaşmanın iki tərəfidir. Belə nəticəyə gəlmək mümkündür ki, virtual-informasiya reallığı sosiallaşmanın əsas mexanizmlərindən biri kimi çıxış edərək informasiya cəmiyyətində şəxsiyyətin təşəkkülünə həm müsbət, həm də mənfi təsir göstərir. Məsələn, informasiya-kompüter sosiallaşmasının müxtəlif tərəfi qismində onun sosial vaxtı sıxlaşdırması funksiyasını göstərmək olar, yəni sıxlaşma şəxsiyyətin təşəkkülü prosesini tezləşdirir. Belə bir faktor fərdin sürətlə dəyişməkdə olan sosial şəraitə uyğunlaşması üçün vacibdir, virtual-informasiya reallığı isə onun tətbiq olunduğu fəaliyyət növlərinin effektivliyini artırmaq vasitəsilə fərdə bu imkanı verir. Belə prosesdə mənfi hal yaranır. Belə ki, həmin sıxlaşdırılmış sosial vaxt yalnız böyük həcmdə informasiyanın sistemləşdirilməsi, işlənməsi, saxlanılması və ötürülməsinin sürətləndirilməsi metodlarının təkmilləşdirilməsi hesabına



deyil, daha çox bilavasitə ünsiyyətin payının azaldılması sayəsində baş verir. Virtual informasiya reallığı insan həyatını ünsiyyətdə öyrənməkdən, onun üçün vərdiş etdiyi şəraitdə mənlik şüurunu formalaşdırmaqdan məhrum edir ki, bu da şəxsiyyətin psixikasına təsir etməyə bilməz. Bu zəmində dissertasiya işində "uğursuz sosiallaşma" anlayışı şərh edilir və göstərilir ki, "uğursuz sosiallaşma" obyektiv və subyektiv reallıq arasında simmetriyanın olmaması halıdır. Uğurlu sosiallaşma isə obyektiv və subyektiv reallıqlar, eləcə də identiklik arasında yüksək səviyyədə simmetriyanın olması faktı kimi təqdim edilir. Bütün hallarda sosiallaşmanın məqsədi şəxsiyyəti daim inkişaf etdirmək, onun fəaliyyət imkanlarını artırmaqdır. Sosiallaşma o zaman uğurlu sayılır ki, fərd zəruri rolları mənimsəyir, mövcud cəmiyyətin bəyəndiyi dəyərlərə, sosial normalara, davranış stereotiplərinə yiyələnir.

**II fəsil "Pablik-rileşnz: sosiallaşmanın yeni faktorları"** və bu fəslin yarımfəsilləri **"İnformasiyanın əlçatarlığı şəxsiyyətin sosiallaşma faktoru kimi", "Pablik rileyşnz (PR) şəxsiyyətin sosiallaşmasının yeni reallığı kimi"** adlandırılmışdır. Burada informasiyanın əlçatarlığı sosiallaşmanın faktoru kimi, informasiya, pablik-rileyşnz, sosiallaşmanın yeni reallıqları kimi məsələlər araşdırılır. Qeyd edilir ki, informasiyanın əlçatarlığı azad cəmiyyətlərin konstitusiyaları və beynəlxalq qanunları ilə hər kəs üçün təmin olunan əsas prinsipdir. İnformasiyanın əlçatarlığı ictimai həyatın açıqlığına nail olmaqdan, informasiyanın açıqlığı prezumpsiyasının tanınması və qəbul edilməsini bildirir. Bu kontekstdə tənzimlənmənin beynəlxalq sənədlərdə təsbit edilmiş prinsipləri şərh edilir, informasiya, informasiyalaşdırma və informasiyanın Azərbaycan Respublikasının Qanununun ölkəmizdə informasiya cəmiyyətinin qurulmasındakı rolundan bəhs olunur, informasiya formaları açıqlanır, informasiyanın əldə edilməsində məhdudiyyətlər informasiyanın açıqlığının ümumi prinsiplərindən istisna kimi nəzərdən keçirilir, müəyyən hallarda informasiyaya məhdudiyyət qoyulmasının səbəbləri göstərilir, sosiallaşdırma prosesində mühüm sosial mexanizm kimi çıxış etməsi əsaslandırılır. Hazırda informasiyanın əlçatarlığı kontekstində vətən sosial fəlsəfəsinin aktual, lakin dəyərincə öyrənilməmiş problemlərindən biri əhalinin tolerantlığı səviyyəsi ilə müxtəlif sosial strukturların informasiya açıqlığı səviyyəsini qiymətləndirmək məsələsidir. Sorğular və tədqiqatçıların mövqeyi bunu deməyə əsas verir ki, yeni şəraitdə vətəndaşların informasiyaya azad əlçatarlığını müəyyən edən Milli Proqram işlənib hazırlanmalıdır. Bu funksiyanı yerinə yetirmək üçün hüquqi, təşkilati-texnoloji və iqtisadi tədbirlər kompleksini reallaşdırmaq

lazımdır. Belə tədbirlərin həyata keçirilməsi təkcə şəxsiyyətin deyil, həm də cəmiyyətin, dövlətin sosiallaşmasının güclü ictimai mexanizmidir. İnformasiya potensialından hər bir şəxsiyyətin, bütövlükdə dövlətin maraqları naminə səmərəli istifadə olunması üçün vətəndaş cəmiyyətinin formalaşması yolunda mühüm addım olan cəmiyyətin institutsional strukturlaşması vacib şərtdir. Bu kontekstdə informasiya cəmiyyətinin tam formalaşmasını təmin edən ən qüdrətli faktorlardan biri kütləvi informasiya vasitələrinin özünün effektiv informasiya inkişafı institutu olmasıdır. Bu işdə vətəndaşların informasiyaya azad əlçatarlığına kömək edən Proqramın işlənib hazırlanması, təkmilləşdirilməsi və reallaşdırılması Azərbaycanın dünya birliyinə inteqrasiyası yolunda ciddi irəliləyişlər üçün mühüm mexanizm olmalıdır. İnformasiya şəbəkələri insanlara nə qədər məlumat versə də, bu sahədə hökm sürən inhisarçılıq nəticəsində informasiyanın əldə olunma mexanizmlərinin sərrast işləməsinə imkan çox az olacaq, informasiya subyekti çox hallarda korporasiyanın təklif etdiyi informasiya ilə razılaşmaq kimi sosial-psixoloji faktorla üzləşməli olacaqdır. İnformasiyanın əlçatarlığı probleminin aktuallığını şayiə fenomeninin təhlili göstərir ki, cəmiyyət "qapalı" olduqca, həm siyasi, həm də məişət şayiələrinə geniş meydan açılır. Bu kontekstdə şayiə fenomeninin məkan-zaman çərçivəsi, ekspressiv, "qorxuda şayiə", "aqressiv şayiə" çalarları təhlil edilir. Belə bir nəticəyə gəlinir ki, şayiələrin yayılması prosesində sosial informasiya, sosial psixoloji və ümumi psixoloji qanunauyğunluqlar üzə çıxır, cəmiyyətdə təsirli ideologiyanın olmadığı bir şəraitdə siyasi və iqtisadi məzmunlu şayiələr böyük təhlükə mənbəyinə çevrilir.

İnformasiya cəmiyyətinin qurulması prosesində – Pablik Rileyşnz (PR) fenomeni müstəsna rol oynayır. Tədqiqatlarda göstərilir ki, PR subyektlə obyekt arasında idarəolunan kommunikasiya prosesidir, məqsədi isə cəmiyyətin bütün fəaliyyət sahələrini obyektiv informasiya ilə təmin etməkdir.[1] Dissertasiyada qeyd edilir ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesində PR fəaliyyətlə, onun imkanları cəmiyyətin effektiv idarə olunmasına cəlb edilməsi şərtləri dərindən və hərtərəfli öyrənilməlidir. Azərbaycanın informasiya suverenliyinin və müstəqilliyinin inkişaf mexanizmlərindən biri kimi PR xüsusi əhəmiyyət kəsb edir. Bununla belə, ictimaiyyətlə əlaqəni yeganə sosial və peşəkar institut, inkişafın sosial mexanizmi kimi bütləşdirmək lazım deyildir.

[1] PR сегодня: новые подходы, исследования, международная практика. М.: ИМИДЖ-Контакт. Инфра-М, 2002, с.316.



İşdə Qərb ölkələrində PR-nin mütəxəssislərinin hazırlığı problemi nəzərdən keçirilir, idarəetmənin funksiyası olaraq PR-in müxtəlif məzmun aspektləri araşdırılır. Bəzən ədəbiyyatda PR anlayışını "pablisiti" termininin sinonimi kimi təqdim edirlər. Doğrudur bunlar arasında oxşarlıq çoxdur, lakin onları bir-birinə müncər etmək düzgün olmazdı. Başlıcası budur ki, informasiya açıq olmalıdır. İşdə qeyd olunur ki, şəxsiyyətin, dövlətin və cəmiyyətin sosiallaşması kontekstində PR sistemində implisit informasiya mühüm yer tutur. İmplisit informasiya deyərkən xəbərdə gizli formada təqdim olunan informasiya nəzərdə tutulur. Yəni bu zaman informasiya açıq şəkildə ifadə olunmur, lakin xəbər şərh edilərkən ünvançı tərəfindən üzə çıxarılır. Real praktikada çoxlu sayda PR prosesi iştirakçılarının mənafelərinin razılaşdırılmasına ehtiyac duyulur. Dissertasiyada göstərilir ki, ideologiyanın idraki komponent kimi işlənib hazırlanması PR-agentinin informasiya-analitik xidmətinin analitik xidmət və kliyentin rəhbərliyi ilə birlikdə həyata keçirilir. Belə bir ideya əsaslandırılır ki, PR-prosesin informasiya-analitik aspektinin effektli informasiya təminatı PR-agentinin informasiya-analitik xidmətinə lazımi informasiyanı vaxtında və dolğun təqdim etməsi sahəsində PR-subyektiv öz öhdəliklərini vaxtında yerinə yetirdiyi təqdirdə mümkündür. İşdə PR-agentin analitik-proqnostik, təşkilati texnoloji, informasiya-kommunikasiya, kommunikativ-metodik funksiyaları araşdırılır. Dissertasiyada sosiallaşmanın mühüm göstəricisi olan sosial-siyasi mədəniyyətin formalaşmasında PR-in rolu xüsusi qeyd edilir və göstərilir ki, informasiya nəinki güclü sosial təsir potensialına malikdir, həmçinin düşüncədə informasiya toplamaq mədəniyyətini formalaşdırır. XXI əsrin birinci onilliyi sübut edir ki, informasiya mədəniyyətinin zəif olduğu ölkələrdə vətəndaş cəmiyyəti quruculuğu işi üçün ciddi maneələr yaranır, liderlər və rəhbərlər səhv qərarlar qəbul edir, milli azadlıq hərəkatının ortaya çıxardığı taleyüklü suallara cavab tapa bilmir, milləti müasirliyin tərəqqi yoluna çıxarmaq qabiliyyətində olmurlar və deməli şəxsiyyətin sosiallaşması prosesini ləngidirlər. Beləliklə, PR – fəaliyyət vasitələri sistemi olaraq kommunikasiya vasitələri subyektlərinə müxtəlif qarşılıqlı təsir kanallarından təsir edən metodlar, metodikalar, texnologiyalar məcmusudur. Bunun sayəsində elmin geniş kütlə ilə əlaqəsi genişlənməyə, eyni zamanda KİV elm və maarif təşkilatlarında öz PR-strukturlarını formalaşdırmağa başlayırlar. Deməli, PR-nin bir fəaliyyət kimi əhəmiyyətini, sosiallaşdırma potensialını elmi və media bilikləri dərk etməyə və real vəziyyətdə özlərini təsdiq etmək üçün yollar axtarmağa çalışırlar. Bu işdə mühüm vəzifə-

lərdən biri dövlətin və biznes strukturlarının cəlb olunmasıdır. Onlar elm və təhsil layihələrində iştirak etməklə cəmiyyətdə öz nüfuzlarını artırır, nüfuz kapitalını çoxaldırlar. Başlıca problem bu layihələrin uğurla həyata keçirilməsidir. Beləliklə, belə nəticəyə gəlmək mümkündür ki, PR-kommunikasiya fəaliyyəti şəxsiyyətin, dövlətin və cəmiyyətin sosiallaşmasında yeni mühüm faktor kimi çıxış edir.

**"İnformasiya məkanının təkmilləşdirilməsi və vətəndaşlarının sosiallaşmasında dövlətin rolu"** adlı **III fəsil də** iki yarımfəslə bölünmüşdür: birinci yarımfəsil **"Dövlət və sosiallaşma",** ikinci yarımfəsil isə **"Azərbaycanda informasiya cəmiyyəti quruculuğu və şəxsiyyətin sosiallaşmasının aktual problemləri"** adlandırılmışdır. Bu fəsildə dövlətin sosiallaşması, Azərbaycan Respublikasında informasiya cəmiyyəti quruculuğunun aktual problemləri kimi milli fəlsəfi fikrində çox az araşdırılmış məsələlər nəzərdən keçirilir, dövlət və informasiya əlaqələri problemləri araşdırılır.

Qeyd edilir ki, siyasi sistemlərin, dövlətlərin siyasətinin məkan-zaman dinamikasının tədqiqi mühüm əhəmiyyət kəsb edir, çünki bu, sosial inkişafın, xüsusilə modernləşmənin və demokratikləşmənin mexanizmlərinin və qanunauyğunluqlarının dərkində başlıca vasitədir. Bu kontekstdə göstərilir ki, dövlət və informasiya münasibətində mühüm cəhətlərdən biri dövləti maraqlandıran bilikləri və informasiyanın fəaliyyət obyektlərinə, qurumlarına tətbiqidir. Deməli, dövlətin siyasətində özünü qlobal məkanda reallaşdırmaq üçün dolğun və düzgün informasiyadan istifadə olunmalıdır. Belə bir nəticəyə gəlinir ki, dövlət senzurasının ictimai fikri formalaşdıran informasiya sistemlərinə qanun çərçivəsinə sığmayan formada müdaxiləsi qəbul edilməzdir. Belə bir ideya əsaslandırılır ki, insan haqqında informasiyanın genişləndirilməsində və dərinləşdirilməsində, informasiya cəmiyyətində şəxsi azadlığın dərəcəsinin artırılmasında dövlətin siyasəti yeni şərt kimi çıxış edir, başqa sözlə, cəmiyyətdə idarəetmə normasının yerinə yetirilməsi müəyyən şərtlərə söykənməlidir. Əgər bu şərtlər dəyişirsə, norma özü də dəyişir. Bu kontekstdə işdə dövlət, sosial plüralizm və teleinformasiyanın qarşılıqlı əlaqəsi probleminə toxunulur və göstərilir ki, dövlət informasiya-kommunikasiya texnologiyalarının tətbiq edildiyi bütün həyat sahələrində tam və əhatəli nəzarətin təmin olunmalıdır. Bununla bağlı, sosial plüralizm anlayışının tərifi verilir və qeyd olunur ki, ən ümumi şəkildə plüralizm fəlsəfi dünyagörüşü mövqeyi olub vahid bir nəyəsə müncər edilməyən və bir-birindən asılı olmayan mənafelərin, varlıq formalarının, ideyaların, baxışların, sosial institutların çoxluğunu



bildirir. Fəaliyyəti cəmiyyətin rifahına yönəlmiş dövlət - əgər müasir idarəetmə strukturlarına malikdirsə nəzərə almalıdır ki, müəyyən məqamdan başlayaraq böyüməkdə olan nəslin medialaşmış cəmiyyət həyatına hazırlanması xüsusi aktuallıq kəsb edir. Media təhsil arasıkəsilməz prosesdir, arasıkəsilməzlik yeni tipli pedaqogikanın konseptual ideyasıdır. Bununla əlaqədar işdə Azərbaycan Respublikasının təhsil sistemində sosiallaşmanın real faktoru kimi mediatəhsilin konkret vəzifələrin həlli məsələsi təhlil edilir. Bu vəzifələr aşağıdakılardır: 1) mediatəhsilin şəxsiyyətin ümumi sosiallaşmasında məqsədi və rolu göstərilməlidir; 2) fasiləsizlik təhsil sistemində mediatəhsilin daha mühüm növlərinin spesifikasını göstərmək, diaxronik və sindronik aspektlərdə durumu təhlil etmək; 3) mediatəhsilin "fasiləsizliyi" baxımından daha mühüm faktorların qarşılıqlı təhlilini vermək; 4) fasiləsiz mediatəhsilin sistemli modelini təsvir vermək və onun praktik təcəssümünün lokal sxemini təcrübi-eksperimental yolla yoxlamaq. Dissertasiyada xüsusilə qeyd olunur ki, informasiya cəmiyyətinin qurulması və şəxsiyyətin sosiallaşması bir-birilə əlaqəli olduğundan bu işdə bütün informasiya resurslarının, informasiya-telekommunikasiya infrastrukturunun bütün elementlərinin idarə olunması, informasiya-texnologiyaları bazarlarının dövlət tərəfindən dəstəklənməsi, dövlət elektron və KİV mətbuatının tənzimlənməsi tələb olunur. Dövlət özünün informasiya fəaliyyətində informasiya-telekommunikasiya infrastrukturunun modelləşdirilməsinə, milli informasiya resurslarından effektiv istifadə olunmasına informasiyanın azad əlçatarlığına, vətəndaşların ictimai əhəmiyyətli informasiya ilə təmin olunmasına, KİV-in inkişafına, informasiya cəmiyyətinin quruculuğunun normativ hüquqi bazasının yaradılmasına üstünlük verməlidir.

Bununla əlaqədar qeyd olunur ki, qloballaşma əsrində hər bir dövlət təkcə müxtəlif və dərin inkişaf etmiş informasiya proseslərinə söykənən yeni məskunlaşma mühitini formalaşdırmaq deyil, həmçinin yaranmaqda olan informasiya böhranının mümkün əlamətlərini təhlil etmək, bu böhrandan çıxmaq yollarının axtarılmasında iştirak etməlidir. Dövlətlər, o cümlədə Azərbaycan, belə bir faktla üzləşmişlər ki, bəşəriyyət artıq qlobal əlaqənin texniki şəraitini yaradaraq bu günə kimi görünməmiş dərəcədə həm qlobal parçalanmanın potensial imkanlarını, həm də yeni həmrəy dünya şüurunun mümkün formalaşdırılma imkanlarını artırmışdır. Deyilənlər Azərbaycanda informasiya cəmiyyəti quruculuğu prosesində dövlət informasiya siyasətinin düzgün qurulması və fəal həyata keçirilməsi problemini aktuallaşdırır, çünki əslində dövlətin

informasiya siyasəti dövlətin daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir, hakimiyyətin beynəlxalq nüfuzunu müəyyənləşdirən sosial-siyasi faktordur. Dövlətimiz hazırda özünün informasiya siyasətini iqtisadi və hərbi üstünlük təşəkkül tapmış çoxqütblü dünyada siyasi və mədəni təsir uğrunda aramsız mübarizədə tutarlı siyasət forması kimi həyata keçirir. Azərbaycan dövləti informasiya siyasətində təhsilin, elmin və mədəniyyətin yerinə xüsusi diqqət yetirir. Müharibə şəraitində olan ölkəmiz informasiya müharibəsi məsələsini daim diqqətdə saxlayır. Bu kontekstdə işdə informasiya müharibəsinin psixoloji əməliyyatlar, elektron müharibə, dezinformasiya, fiziki məhvetmə, təhlükəsizlik tədbirləri, birbaşa informasiya hücumları kimi tərkib hissələri tədqiq edilir. Bununla bağlı milli informasiya resursları, informasiya-kommunikasya infrastrukturu, informasiya, kompüter və telekommunikasiya texnologiyaları, informasiya məhsulları və xidmətlərinin istehsalının və istehlakının inkişaf etdirilməsi, informasiyalaşmanın, telekommunikasiyaların və rabitənin elmi istehsalat potensialının inkişafı, elektron kütləvi informasiya vasitələrinin struktur və mexanizmlərinin inkişafı kimi aktual məsələlərə toxunulur. Azərbaycanda informasiya cəmiyyətinin inkişaf perspektivlərindən bəhs edərkən müəllif "elektron dövlət" konsepsiyasını araşdırır və belə bir nəticəyə gəlir ki, elektron hökuməti dövlət idarəçiliyinin elektron sənəddövriyyəsi sistemi kimi ölkə miqyasında bütün idarəetmə proseslərinin məcmusunun avtomatlaşdırılmasına əsaslanır və dövlət idarəçiliyinin effektliyinin artmasına və cəmiyyətin hər bir üzvü üçün sosial kommunikasiyaların qüsurlarının azalmasına xidmət edir. Elektron hökumətinin yaradılması sənədlərin idarə olunması və onların işlənməsi ilə bağlı bir qrup vəzifələrin həllini reallaşdıran ümumdövlət bölgüsünü həyata keçirən ictimai idarəetmə sisteminin yaradılmasını nəzərdə tutur, onun üsullarının geniş tətbiqi isə dövlət təşkilatlarının fəaliyyətini keyfiyyətcə dəyişməsi üçün real şərait yaradır, xidmət mədəniyyətini təkmilləşdirir. Burada qeyd olunur ki, 2003-cü il dekabrın 12-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Cenevrədə informasiya cəmiyyəti quruculuğu məsələləri üzrə Ümumdünya Sammitində iştirakı dünya ictimaiyyətinə Azərbaycanda bu sahəyə böyük diqqət verildiyini nümayiş etdirdi. 2005-ci ilin noyabrında Azərbaycan nümayəndə heyətinin informasiya cəmiyyəti quruculuğu məsələləri üzrə Sammitin Tunis mərhələsində iştirakı ölkəmizin bu sahədə beynəlxalq əlaqələrinin genişlənməsinə, həmçinin geniş ictimaiyyəti ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı barədə obyektiv məlumatlandırmaq işində böyük imkanlar açmışdır.



Önəmli cəhətdir ki, informasiya cəmiyyətinin quruculuğu sahəsində 2 il ərzində əldə edilmiş uğurlara görə, Sammitdə Azərbaycana minnətdarlıq bildirilmişdir. 2005-ci il oktyabrın 21-də İlham Əliyevin tədqiq etdiyi "2005-2008 illər üçün Azərbaycan Respublikasında rabitənin və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı" təyinatına görə, informasiya cəmiyyəti yaratmağa və bütövlükdə dövlətimizin inkişafına xidmət edir. İşdə qeyd olunur ki, "Elektron yazısı və elektron sənədi haqqında Qanun" ölkədə elektron sənəd dövriyyəsi və elektron imzasından istifadə edən yeni proseslərin inkişafı üçün şərait yaratmışdır. Bu qanun sayəsində bu sahə üzrə digər qanunvericilik aktlarının hüquqi əsası yaradılmışdır. Başqa bir qanun "Elektron ticarəti haqqında" Qanun alqı-satqı əməliyyatlarının həyata keçirilməsinə, müxtəlif ticarət xidmətlərinin göstərilməsinə, şəbəkədə elektron üsulu ilə müqavilələrin bağlanmasına, həmçinin qloballaşan dünyada ölkələr arasında iqtisadi münasibətlərin inkişafına kömək edir. Dissertasiyada "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında" Qanunların Azərbaycanda informasiya cəmiyyətinin qurulması prosesində mühüm rolu göstərilir və qeyd edilir ki, ölkə prezidentinin "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi Proqramı" haqqında sərəncamı təhsilin keyfiyyətinin artırılmasında fundamental əhəmiyyət kəsb edir. Burada həmçinin belə bir mühüm faktor vurğulanır: Beynəlxalq QRİD-ə daxil olmağa imkan verəcək milli QRİD seqmenti proqramının yaradılmasında əsas məqsəd milli vəzifələrin həllinə və beynəlxalq layihələrdə iştirak etməyə kömək göstərməkdir. QRİD hesablamalar paylaşdırıcı hesablamaların elə formasıdır ki burada çoxlu sayda tapşırıqların (əməliyyatların, işlərin) birgə yerinə yetirilməsi üçün şəbəkənin, zəif əlaqəli deterogen kompüterlərin köməkliyi ilə klaster birləşmiş şəkildə "virtual superkompüterlər" təqdim edilir. Bu texnologiya xeyli hesablama resursları tələb edən elmi riyazi məsələlərin həllində tətbiq edilir. Dissertasiyada belə bir nəticəyə gəlinir ki, ölkəmizin informasiya siyasətinin başlıca qayəsi hər şəxsiyyətin cəmiyyətin siyasi, iqtisadi və sosiomədəni məsələlərin başa düşməsinə kömək etmək, vətəndaşları informasiya müharibəsində rəqibin informasiya resurslarına təsir göstərməyə, həmçinin öz informasiya resurslarını müdafiə etməyə hazırlamaqdır. Beləliklə, ən kəsərli silah dövlətin informasiya siyasəti və onu düzgün həyata keçirilməsidir.

"Nəticə"də tədqiqata yekin vurulur, problemin gələcək perspektivləri ilə bağlı bir sıra tövsiyələr söylənilir.

Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində, habelə elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır:

1. «Sosial informasiya» və «informasiya cəmiyyəti» anlayışlarına dair // «Tarix və onun problemləri», №4, Bakı, 2007, s. 287-292
2. İnformasiya mədəniyyəti və şəxsiyyətin sosiallaşması // «Dünyaya baxış», №2, Bakı, 2008, s.137-142
3. Kütləvi informasiya vasitələrinin sosiallaşdırma potensialı // «Bakı Universitetinin Xəbərləri», №2, Bakı, 2009, s. 115-124
4. Kompyuter informasiyası və şəxsiyyətin sosial inkişafı // «Bakı Universitetinin Xəbərləri», Sosial-siyasi elmlər seriyası, №4, Bakı, 2010, s.99-105
5. Перспективы построения информационного общества в Азербайджане /AR TH Doktorantların və gənc tədqiqatçıların XV Respublika Elmi Konfransının Materialları. Bakı, «Bakı Universiteti», 2011, s. 32-33
6. Şəxsiyyətin sosiallaşmasının aktual problemləri // «Bakı Universitetinin Xəbərləri», Sosial-siyasi elmlər seriyası, №3, Bakı, 2011, s.97-104
7. Электронное правительство как основа построения информационного общества в Азербайджане / Информатизация общества: социально-экономические, социокультурные и международные аспекты // Материалы II международной научно-практической конференции. 15-16 января 2012. Пенза, s.78-83
8. Электронное правительство как основа построения информационного общества в Азербайджане // Вектор науки Тольяттинского Государственного Университета. Сер. «Экономика и управление», №2(13), 2013, s.28-30
9. İnformasiya cəmiyyətindən bilik cəmiyyətinə doğru: Azərbaycanda perspektivləri / Qloballaşma şəraitində sosial problemlərin həlli yolları // Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları (26 aprel 2013-cü il), Bakı, 2013, s.28-34
10. Azərbaycanda informasiya texnologiyalarının dövlət tənzimlənməsi: sosial-fəlsəfi aspekt / Mədəni müxtəliflik: dünya və Azərbaycan. Beynəlxalq elmi-praktik konfrans, 29 aprel 2016-cı il. Bakı, 2016, s. 81-83
11. Sosial kommunikasiyanın tənzimləyici funksiyaları və sosiallaşma / AR TH Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının Materialları. 24-25 oktyabr 2017-ci il // Elmi-praktik



konfransın materialları. Bakı: «Bakı Universiteti», 2017, s.37-41.

**Азада Мирза Гусейн гызы Иманова**

## Информационное общество и социализация личности: социально-философский анализ

## Резюме

Диссертационная работа на тему «Информационное общество и социализация личности: социально-философский анализ” посвящена одной из актуальных проблем современной социальной философии. Современное глобальное общество можно охарактеризовать ускорением темпов развития науки и техники, создаются и совершенствуются новые интеллектуальные технологии, происходит превращение информации в один из важных ресурсов человечества. Социализация личности – это непрерывный процесс, в результате которого человек приобретает необходимые качества и опыт для полноценной жизнедеятельности в обществе. Именно это проблема является объектом изучения в диссертационной работе.

Диссертация состоит из введения, трех глав и заключения. Во введении обосновывается актуальность, дается степень изученности проблемы, научная новизна, практическая значимость работы, задачи исследования.

В первой главе – «Информационные ресурсы общества и возможности социализации личности» разрабатываются также вопросы как понятие информационные ресурсы, их сохранения и эффективные управления ими, виртуальные и информационные реальности и социализация, интеллектуальный потенциал личности. Здесь указывается, что рассмотрение данных проблем имеет важное методологическое значение.

«Паблик рилейшнз: новые реальности социализации личности» - так называется вторая глава, где рассматриваются следующие проблемы: доступ к информации как фактор социализации, информация, паблик рилейшнз и его роль в социализации личности. Отмечается, что свободный доступ к информации для личности гарантируется конституциями государств и международными законами.

В третьей главе, названной «Совершенствование информационного пространства и роль государства в социализации граждан», изучаются такие мало изученные в национальной философской мысли вопросы как социализация государства, актуальные вопросы построения информационного общества в Азербайджане, рассматриваются проблемы информационная политика государства, взаимоотношение государства и информации. Отмечается методологическая значимость изучения пространственно-временной динамики политических систем, политики государств, ибо оно является важным способом в понимании механизмов и закономерностей современной модернизации и демократизации.

В заключение диссертации изложены выводы и положения, сделаны необходимые обобщения по теме исследования, сделана попытка дать рекомендации по строительству информационного общества в Азербайджане.



**Azada Mirza Huseyn Imanova**

## Information society and socialization of the person: the socially-philosophical analysis

## Summary

This presented thesis «**Information society and socialization of the person: the socially-philosophical analysis**» is devoted to one of the actual problem of modern social-philosophy. The modern global society can be characterised acceleration of development rates of a science and techniques, new intellectual technologies are created and improved, there is a transformation of the information into one of the important resources of humankind. Socialisation of the person is a continuous process in which result the person who is initially gets necessary qualities and experience for high-grade ability to live in a society. It is a problem is object of studying in dissertational work.

The dissertation consists of the introduction, three heads and the conclusion. In introduction the urgency is proved, degree of a level of scrutiny of a problem, scientific novelty, the practical importance of work, the research problem is given.

In the first chapter - «Information resources of a society and possibility of socialisation of the person» are developed also questions as concept information resources, their preservations and efficient controls by them, both virtual and information realities and socialisation, a mental potential of the person. Here it is underlined, that consideration of the given problems has the important methodological value.

«Public relations: new realities of socialisation of the person» – so the second chapter where following problems are considered is called: access to the information as the socialisation factor, the information, public relations and its role in socialisation of the person. It is noticed, that the easy approach to the information for the person is guaranteed by constitutions of the states and the international laws.

In the third chapter named «Perfection of an information field and a state role in socialisation of citizens», are studied such questions a little studied in national philosophical thought as state socialisation, pressing questions of construction of an information society in Azerbaijan, problems the information policy of the state, mutual relation of the state and the information. There is marked methodological importance of studying of existential dynamics of political systems, a policy of the states for it is the important way in understanding of mechanisms and laws of modernisation and democratisation today.

In the conclusion part of the dissertation are stated results and positions, and are made necessary generalisations on a research theme, is made attempt to give to the recommendation about building of an information society in Azerbaijan.

Kağız formatı 60x84 1/16.Sayı 100.
«Bakı Universiteti Nəşriyyatı», Bakı, AZ 1148, Z.Xəlilov, 23.



НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ФИЛОСОФИИ

*На правах рукописи*

АЗАДА МИРЗА ГУСЕЙН гызы ИМАНОВА

# ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И СОЦИАЛИЗАЦИЯ ЛИЧНОСТИ: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ

**Специальность: 7207.01 – Социальная философия**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по философии**

**Bakı – 2018**